# DƏBDƏBƏÇİLİK

**Böyük Rəhbərin sözlərində**

**Tərtib edən: Məhəmmədhüseyn Rzai**
**Tərcümə edən: Əlirza Sərablı**

Cəbhələrdə vuruşanlar kimlər idilər?! Fərqlərə baxın. Səkkiz il müharibə oldu, amma pulluların, varlıların, bu dərdsiz və duyğusuzların çoxu onu hiss etmədi; həmin yemək, həmin rahatlıq, həmin dinclik. Bir neçə gün şəhərləri hücuma məruz qalanda da maşınlarına minib başqa bir yerə getdilər, rahatlıqlarından qalmadılar. Onlar bu məmləkətin necə müsibətlər çəkdiyini bilmədilər. Onlar dövlət qurumlarının canfəşanlıqla xidmət göstərməsinə layiq adamlar deyillər.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

## Birinci fəsil: İqtisadi fəsadların amilləri

### Maddi həyata qərq olmaq

Qardaşlar! Mən və siz o ehtiyatdan qidalanmaqdayıq. Bunu unutmayın. Belə olmaz ki, biz maddi həyatımızda heyvan kimi otlayaq, gəzək və çoxu zəruri imkanlardan məhrum olan xalqın da bizə örnək kimi baxmasını istəyək.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Eyş-işrətə, naz-nemətə alışqanlıq**

Bizim xalqımız veyillikdən və kef məclislərindən uzaq bir xalq idi. Bu işlər aristokratlara, padşahlara, şahzadələrə, kraliçalara məxsus idi. Onlar səhərə qədər oyaq qalıb əyyaşlıq edirdilər. Avropalıların barları bütün sutka boyu, bütün il boyu və tarixdə həmişə açıq olub. Bu, Avropanın tarixidir. Kim istəyirsə, gedib oxusun və görsün. Bunu bizim ölkəmizə daxil etmək istədilər və bacardıqları qədər daxil etdilər. Mədəni hücumda düşmən öz mədəniyyətindən istədiyi nümunələri tapıb xalqa verir və cəmiyyətə daxil edir.

*Böyük Rəhbərin Təlim və Tərbiyə naziri, nazir müavinləri və bölgələrin maarif müdirləri ilə görüşdə çıxışından: 1991.*

**İslam dünyasında yeni dəbdəbə təhlükəsi**

İslamın dəbdəbə meylini məhv etməsindən sonra İslam dünyasında yeni aristokratlar təbəqəsi meydana çıxdı. Bəzi qüvvələr İslam adı, İslam postları - filan səhabənin oğlu, Peyğəmbərin (s) filan dostunun, filan qohumunun oğlu adları altında onlara yaraşmayan işlərə qurşandılar. Bunların bəzisinin adı tarixdə qeyd olunmuşdur. Elələri tapıldı ki, qızlarının mehri üçün əziz Peyğəmbərin (s), Əmirəlmömininin (ə) və erkən İslam çağı müsəlmanlarının dediyi 480 dirhəmdən ibarət sünnə mehrinin yerinə bir milyon dinar – yəni bir milyon misqal xalis qızıl mehr təyin etdilər. Kimlər? Böyük səhabələrin, misal üçün, Müsəb ibn Zübeyrin və digərlərinin oğulları. Bir quruluşun daxildən fəsada uğraması budur. Yəni cəmiyyətdə elələri tapılır ki, özlərinin dünyagirlikdən, şəhvətpərəstlikdən ibarət öldürücü və yoluxucu əxlaq xəstəliklərini tədricən cəmiyyətə ötürürlər.

*Böyük Rəhbərin İmam Hüseynin (ə) doğum günü münasibəti ilə Keşikçilər Korpusu və polis qüvvələri ilə görüşdə çıxışından: 1993.*

**Məmurların dəbdəbəsi - əlavə təhdid**

İnqilabdan qabaq hökumət məmurları bacardıqları qədər artıq cah-calalla, təkəbbürlülüklə, fironluqla, zadəganlıqla və bahalı paltarlarla görünürdülər. Bir qrup avam insanın da bundan çox xoşu gəlirdi. Ümumi mədəniyyəti belə formalaşdırmışdılar. İnqilabdan sonra isə əksinə oldu, eyş-işrət adamları xalqın qorxusundan bu işlərdən çəkindilər. Lakin bu gün tədricən əvvəlki vəziyyəti qaytarmaq istəyirlər. Mənim fikrimcə, eyş-işrətə meyl ölkə üçün zərərli, məmurların eyş-işrəti isə ikiqat zərərlidir. Ona görə ki, sərvətli adamlar özlərinin halal, yaxud haram mallarından xərcləyirlərsə, öz malları ilə israfçılıq edirlər. Məmurlar israfçılıq edəndə isə öz mallarını yox, xalqın malını xərcləyirlər. Bu vəziyyət xalqın ümumi hissi ilə, yazmaqla, deməklə və uyğun mədəniyyəti yaymaqla düzələ bilər.

*İslam İnqilabının Böyük Rəhbərinin Şərif Sənaye Universitetində tələbələrin suallarına cavablarından: 1999.*

**Hökumətlərin ən böyük təhlükəsi**

Çox əhəmiyyətli olan başqa bir məqam budur ki, məhkəmə daxilində pulun və pullunun nüfuzundan ciddi şəkildə çəkinməlisiniz. Çox böyük təhlükələrin biri budur. Sübut olunub ki, pul çox şeydən güclüdür. Bu gün sionizmin məqsədlərinin çoxu dünyada pul gücünə icra olunur. Hər hansı bir etiqada malik hökumətlərin ən böyük təhlükələrindən biri pulluların hökumətin əsas sütunlarına təsir göstərə bilməsidir. Bu hər şeyi korlayır. Quruluşun hansı sahəsi sərvətlilərin və pulluların təsirinə düşsə, əldən çıxacaq.

*İslam İnqilabının Böyük Rəhbərinin 7 Tir (28 iyun) hadisəsinin ildönümü ərəfəsində Ali Məhkəmənin sədri, müavinləri və əməkdaşları ilə görüşdə çıxışından: 2002.*

**Təbəqələr arasında fərq**

Yoxsulla varlı, zadəganla sadə insan arasında məsafə yaratmaq, xüsusi bir təbəqəyə imtiyaz vermək İslam Respublikası quruluşuna uyğun deyil. İslam Respublikası quruluşunun hər hansı bir sahəsi hər hansı bir səviyyədə bu təhdidlərin birinə düçar olsa, deməli, İslam Respublikasının və İslam quruluşunun həqiqi yolundan çıxmışdır və islah edilməlidir.

*İslam İnqilabının Böyük Rəhbərinin Ciroft əhalisinin böyük toplantısında çıxışından: 2005.*

**Ədalət dəyərini unutmağın böyük təhlükəsi**

Qabaqkı dövrdə məhrum təbəqələrin vəziyyətini görənlər var. Mənim özüm o zaman məhrum bölgələrdə olmuş, məhrum yerləri görmüşəm. İndi də çox zaman gedib yaxından görürəm. Doğrudan da çox dəyişmişdir. Ümumi istifadə məqsədilə icra olunan nəhəng infrakstruktur layihələrinin hamısı ədalətə köməkdir. Bunda şübhə yoxdur. Lakin ədalət dəyəri digər dəyərlərin qarşısında ikinci dərəcəli bir şey olub yavaş-yavaş unudulmamalıdır. Bizim quruluşumuzda bu təhlükə var. Digər dəyərlər də çox mühümdür; misal üçün, inkişaf və tərəqqi dəyəri, quruculuq dəyəri, azadlıq və demokratiya dəyəri. Ədalət dəyərini bayraq etmək əsla bunları inkar etmək demək deyil. Biz bu dəyərləri əsas ediriksə və cəmiyyətdə ədalət məsələsi, ayrıseçkiliyin inkarı və məhrum təbəqələrin ehtiyaclarına diqqət zəifləyirsə, bu, böyük təhlükədir. Bir hökumətin ədaləti əsas prinsip seçməsi isə bu təhlükəni dəf edir və ya zəiflədir.

*İslam İnqilabının Böyük Rəhbərinin prezident və nazirlərlə görüşdə çıxışından: 2005.*

**Kommunizmin davamsız ədaləti**

Kommunizmin hər hansı formada - inqilab, yaxud çevriliş şəklində həyata keçdiyi bütün ölkələrdə ədalət əsas şüar olmuşdur. Onların real həyatı isə əsla ədalətli deyil, onun tam əksi olmuşdur. Fəhlə adı altında tağut rejimlərinin aristokrat təbəqələri və onlarla heç bir fərqi olmayanlar iş başına gəlmişlər. Marksist ölkə başçılarının həyatı belə idi. Mən prezident olarkən bəzi sosialist ölkələrinin aşağı təbəqələrinin vəziyyətini, adı ədalət olan, lakin ədalətdən əsər-əlamət olmayan yerləri görmüşəm. Orada yeni aristokrat təbəqəsi özlərinə xas partiya və siyasi meyarlarla hakimiyyətə gəlib bütün imkanları ələ keçirmişdilər. Xalq isə yoxsulluq və bədbəxtlik içində yaşayırdı. Onların hətta birinci dərəcəli ölkələrində də vəziyyət belə idi. Belə ədalətsevərlik isə davamsız, riyakarcasına və yalandır.

*İslam İnqilabının Böyük Rəhbərinin prezident və nazirlərlə görüşdə çıxışından: 2005.*

**Bizim dinimizdə olan insanlar**

Cənab Əhmədinejadın yaxşı şüarlarından biri də sadə həyat tərzidir. Bu, çox mühüm şüardır. Buna əhəmiyyətsiz yanaşmaq olmaz. Biri var ki, öz şəxsi həyatımızda zadəgan kimi davranaq; bu haram olsa, haram, məkruh olsa, məkruh, halal olsa, halaldır. Lakin bir də var ki, xalqın gözü qarşısında aristokrat manevrləri edək; bunun daha halalı və məkruhu yoxdur, hamısı haramdır. Ona görə ki, dəbdəbəyə meyl aşılayır, əvvəl tabeliyimizdə olanlar, sonra isə bütün xalq buna həvəslənir. Biz xalqı buna həvəsləndirməməliyik. Bizim israfçılığımız əvvəla cibimizdən deyil, beytülmaldandır. İkincisi isə bizim israfçılığımız digərlərini israfçılığa həvəsləndirir. Doğrudan da "insanlar başçılarının dinindədirlər". Burada məqsəd padşah deyil ki, bizdə padşahın olmadığını deyək. Xeyr, başçılar sizlərsiniz; insanlar bizim dinimizdədirlər.

*İslam İnqilabının Böyük Rəhbərinin prezident və nazirlərlə görüşdə çıxışından: 2005.*

**"Tikələrimizə diqqət yetirək!"**

Əziz qardaş və bacılar! Özünüzdən muğayat olun. Adlarını, yaxud barələrində eşitdiyiniz fəsad adamları əvvəldən belə olmamışlar. Bir dəfə kimsə yağlı, yumşaq və ağızı şirinləşdirən bir tikəni bilərəkdən, yaxud bilməyərəkdən bunların ağzına qoyub. Ağızlarına şirin gəlib. Sonrakı tikələri də özləri götürüb fəsada yoluxublar. Çox diqqətli olun. Xidmət göstərəcəyiniz bu bir neçə ildə özünüzdən çox ehtiyatlı olun. Təqva budur; yəni ehtiyatlı olmaq.

*İslam İnqilabının Böyük Rəhbərinin prezidentlə və quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2007.*

**"Hər növ inkişaf yaxşı deyil!"**

Bir gün naşılıqdan, yaxud ağılsızlıqdan şüar verib fəryad qoparan və "gedib başdan-ayağa avropalı olmalıyıq" - deyən şəxs anlamadı ki, Avropanın öz keçmişi, mədəniyyəti və düşüncə əsasları vardır. Avropanın inkişafı da həmin düşüncə əsaslarına görədir. O əsasların bəzən bizim tərəfimizdən qəbul olunmaması, bizim onları rədd etməyimiz və yanlış saymağımız mümkündür. Bizim öz düşüncə və əxlaq əsaslarımız var. Orta əsrlərdə Avropada kilsə elmə qarşı mübarizə aparmışdır. Avropanın elmi renessansının həmin keçmişə qarşı reaksiyası amilini diqqətdən qaçırmamalıyıq. Onun mental, fəlsəfi və əxlaqi əsaslarının seçmək istədiyi inkişaf növünə çox böyük təsiri var. Bizim mental əsaslarımız bizə deyir ki, bu inkişaf qanunidir, yoxsa qanunsuzdur; yaxşıdır, yoxsa pisdir; ədalətlidir, yoxsa ədalətsizdir.

*Kürdüstan vilayətinin universitet müəllimləri və tələbələri ilə görüşdə çıxışdan: 2009.*

## İkinci fəsil: Dəbdəbə və dünyagirliyin zərərləri

### Məhrum təbəqələrin daha artıq məzlumluğu

Çoxlu yerlərdə olduğu kimi, bizim ölkəmizdə də məhrum və yoxsul təbəqələr, kasıblar, kəndlilər daha çox zülmə məruz qaldılar. Onların barəsində məzlumluq ehtimalı daha güclüdür, nəinki bir pullunun, sərvətlinin, mülkədarın və geniş imkanları olanın. Hamının dərdinə və məzlumluğuna kömək etmək lazımdır, lakin məzlumluq ehtimalı daha çox olanlara - cəmiyyətin məzlum və aşağı təbəqələrinə daha çox qayğı göstərmək lazımdır. Xüsusən də bizim ölkəmizdə bu gənclər cəbhədə və müharibədə ağır imtahan vermişlər.

*Ali Məhkəmənin sədri və məsul işçiləri ilə görüşdə çıxışdan: 1990.*

**Xalqın məmurlara etimadını qorumağın zəruriliyi**

Siz xalqın sevgisini və etimadını necə qazanmaq istəyirsiniz? Xalqın mənə və sizə etimadı olmalıdır. Biz öz işlərimizin dalınca qaçsaq, öz şəxsi həyatımız barədə fikirləşsək, öz rifahımızı və rahatlığımızı düşünsək, dövlət büdcəsini xərcləməkdə hüquqi problem çıxarmayınca heç bir limit tanımasaq və bacardığımız qədər xərcləsək, məgər xalqın etimadı qalar?! Məgər xalq görmür?! İranlılar həmişə ən sayıq xalqlardan olmuşlar. Bu gün də inqilabın sayəsində ən sayıqlardandır, ağıllılardan ağıllıdır. Cənablar! Məgər xalq bizim necə yaşadığımızı görmür?!

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**"İslam cəmiyyətində naz-nemət içində yaşayan məmurlar da meydana çıxır!"**

Mən və siz inqilabdan öncəki həmin tələbə, yaxud müəllimik. Sizlərin biri müəllim idi, biri universitet, biri hövzə tələbəsi idi, biri minbər adamı idi; hamımız belə olmuşuq. Amma indi zadəganlara xas toy keçirməliyik?! Zadəganlar kimi ev tikdirməliyik?! Küçələrdə zadəganlar kimi hərəkət etməliyik?! Zadəganlar məgər necə olmuşlar?! Onların saqqalı yox idi, bizim isə saqqalımız var; məgər bununla məsələ həll olur? Xeyr! Biz də naz-nemət içində yaşayan məmurlardan ola bilərik. And olsun Allaha, İslam cəmiyyətində də belə şəxslərin meydana çıxması mümkündür: "Biz bir məmləkəti məhv etmək istədikdə onun naz-nemət içində yaşayan başçılarına (Allaha itaət etməyi) əmr edərik. Lakin onlar pis-pis işlər törədərlər. Beləliklə, hökm vacib olar və onu yerlə-yeksan edərik". Biz bu ayədən qorxmalıyıq. Naz-nemət içində yaşamaq öz ardınca fasiqlik də gətirir.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**İslam quruluşu və məmurların rəftarı**

Mən dəfələrlə demişəm ki, Allah-Taala Quranın bir neçə yerində Bəni-İsrail barədə buyurub: "Biz onları dünyanın bütün insanlarından üstün etdik". Lakin başqa bir ayədə deyilir: "Onlara zəlillik, miskinlik damğası vuruldu və Allahın qəzəbinə düçar oldular". Nə üçün? Onların rəftarları buna bais oldu. Məgər Allahın mənimlə və sizinlə qohumluğu var?! Məgər Allahın İslam Respublikası ilə və bu adla qohumluğu var?! Mən və siz müəyyən etməliyik ki, bu respublika İslam Respublikasıdır, yoxsa yox. Bu bizim rəftarımızla müəyyən olunur.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**"Varlılar kasıbları düşünsünlər!"**

Pulu və imkanı olanlar təkcə özlərini düşünməsinlər. Çünki o pul da bu ölkədə qazanılıb; o pul da bu xalqın sayəsində və bu torpaqdan əldə edilib. Kim deyə bilər ki, mənim pulum var və bunun üçün dövlətin və xalqın xidmətlərinə, köməklərinə borclu deyiləm?! Məgər belə bir şey mümkündür?! Göydən insan üçün pul tökmürlər. Pul gündəlik həyatda və fəaliyyətdə qazanılır. Minlərlə insan işləyir, təsadüfən bir nəfər varlanır. Pulu və imkanı olanlar onu təkcə özlərinə sərf etməməlidirlər. Siz bir sahəyə sərmayə yatırıb işə başlamaq istəyirsinizsə, onun təkcə sizə nə qədər qazanc gətirəcəyini fikirləşməyin. Biz demirik ki, özünüzü əsla nəzərə almayın; deyirik ki, ölkənizi də nəzərə alın.

*Böyük Rəhbərin Fəhlə və Müəllim günləri münasibəti ilə ölkənin fəhlələri, elm adamları və müəllimləri ilə görüşdə çıxışından: 1993.*

**"Dövlət vəzifəsi qazanc yeri deyil!"**

Bizim Əmirəlmömininin (ə) qarşı çıxdığı bir istiqamətdə hərəkət etməyimiz yolverilməzdir. O özünə qarşı çox tələbkar davranırdı. Bizim yüksək dövlət və hökumət məmurumuzun vəzifəni qəbul etməkdə məqsədi öz dünyasını yaxşılaşdırmaq ola bilərmi?! Bu, uyğun deyil və imkansızdır. Mən ötən il bugünkü günlərdə də dedim ki, İslam Respublikası quruluşunun yüksək rütbəli bir məmurunun öz vəzifəsini digər işlər kimi qazanc mənbəyi hesab etməsi yolverilməzdir. İslam Respublikası quruluşunda yüksək vəzifələr qazanc yeri deyil ki, insan öz dünyasını idarə etmək üçün onun dalına düşsün.

*İslam İnqilabının Böyük Rəhbərinin ramazan ayının 21-də cümə namazı xütbələrindən: 2001.*

**"Quruluşda vəzifə xidmət üçündür!"**

İslam Respublikası quruluşu məmurunun əyan-əşrafa və pullulara baxıb öz həyatını onlarla müqayisə etməyə, özünü tağut hökumətlərindəki tayları ilə ölçməyə haqqı yoxdur. Bəli, tağut aparatlarında bir nazirin, baş direktorun və rəisin bəlli həyat tərzi var. Biz də bu gün özümüzü onlarla ölçüb deməliyik ki, biz də nazir və müdirik?! Xeyr! İslam quruluşunda belə deyil. İslam quruluşunda bu vəzifə yem deyil, insanın boynuna düşən bir məsuliyyət, xidmət və vəzifədir.

*İslam İnqilabının Böyük Rəhbərinin ramazan ayının 21-də cümə namazı xütbələrindən: 2001.*

**Əmirəlmömininə (ə) görə, məmurların vəzifəsi**

Əmirəlmöminin (ə) bir yerdə İbn Abbasa yazdı ki, səni göndərdiyim yerdə öz hökumətindən və valiliyindən bir mal əldə etmək, yaxud kiməsə qarşı qəzəbini soyutmaq üçün istifadə etmə; fərz edin hakimiyyətdən aramızın pis olduğu bir kəsə, filan qrupa, yaxud təbəqəyə qarşı istifadə edək. Belə bir şey qadağandır. Sənin hakimiyyətdən bəhrən batili məhv etmək, yaxud haqqı bərpa etmək olmalıdır.

*İslam İnqilabının Böyük Rəhbərinin ramazan ayının 21-də cümə namazı xütbələrindən: 2001.*

**"Xalq ölkənin sahibidir!"**

Bu gün heç kəs bu ölkənin sahibi olduğunu hətta beynindən də keçirə bilməz. Bu ölkənin sahibi xalqdır. Bu ölkədə hakimiyyətə gəlməyin və vəzifəni yerinə yetirməyin şərti budur ki, xalq onu istəsin, xalqla yaxşı münasibəti olsun, xalqın maraqlarını qorusun, yaxud qoruduğunu göstərsin. Yəni əslində hamı xalqın bu ölkəyə malik olduğunu rəsmən qəbul etməyə məcburdur. Bizim inqilabımız belədir.

*Teleradio şirkətinin şöbə müdirləri ilə görüşdə çıxışdan: 2003.*

**Dünya pul və şəhvət diktaturasının əlində**

Dünyada acı bir həqiqət var; onun görünən varlığını bilərəkdən görməzliyə vurmağa çalışırlar. Bu, pul və şəhvətin diktaturasıdır. Bu gün dünyada pul diktatorluq edir; pul və pullular nə istəsələr, həyata keçir, xalqın öz əli ilə olsa belə. Çünki xalq seçkilərdə və ümumi işlərdə adətən medianın təsiri altına düşür; media qurumları da əsasən pulluların əlindədir. Dünyanın informasiya vasitələrinin neçə faizi sionist və oliqarxların əlində deyil?! Bəlkə demək olar ki, dünyanın bu mühüm və təsirli qurumlarının hamısı güclü oliqarxların və əsasən sionistlərin əlindədir. Xəbər agentliklərini idarə edənlər, xəbər istehsal edib bütün dünyaya yayanlar, televiziya kanallarını özləri istədikləri kimi idarə edənlər onlardır. İndi də yeni rabitə vasitələri, internet saytları və sürətli informasiya ötürücüləri onların əlindədir. Kimin daha çox pulu varsa, bu sahədə daha çox faəliyyət göstərmək və məqsədini təmin etmək istəyir.

*Teleradio şirkətinin şöbə müdirləri ilə görüşdə çıxışdan: 2003.*

**İqtisadi fəsadlara qarşı mübarizə aparmağın xüsusi əhəmiyyəti**

Bir il öncə biz iqtisadi fəsadlara qarşı mübarizə məsələsini irəli sürdük və təşkilatları bu mübarizədə ciddi olmağa çağırdıq. Bu işə diqqət ondan ötrüdür ki, iqtisadi fəsadlar sel kimi bir şeydir; qarşısı alınmasa və mübarizə aparılmasa, bütün cəmiyyəti bürüyər. Bu, fərdi cinayət kimi deyil. İqtisadi fəsadlara qarşı tədbir quruluş üçün həyati əhəmiyyətə malikdir.

*7 Tir (28 iyun) hadisəsinin ildönümü ərəfəsində Ali Məhkəmənin sədri, müavinləri və əməkdaşları ilə görüşdə çıxışdan: 2002.*

**"Ədalət əsas prinsipdir!"**

Ədalət icra olunmalı və heç bir təsirin - sərvətin, hakimiyyətin, məhkəmənin və bürokratiyanın təsiri altına düşməməlidir. Əgər bizim məhkəmə və təşkilatımız ədalətə xələl gətirirsə, zərərlidir. Məhkəməni elə idarə və tənzim etməliyik ki, ədalətə kömək etsin. Çünki ədalət, onun icrası, haqqın bərpa və batilin məhv edilməsi əsas prinsipdir.

*İslam İnqilabının Böyük Rəhbərinin 7 Tir (28 iyun) şəhidlərinin ailələri və Ali Məhkəmənin məsul şəxsləri ilə görüşdə çıxışından: 2004.*

**Fəsadla mübarizə - investoru həvəsləndirən amil**

Bir neçə il öncə mən fəsadla mübarizə məsələsini irəli sürdüm və səkkizmaddəlik məktubu yazdım. Lakin fəsadla mübarizənin mərkəzi kimi çıxış etməli olan İslam Şurası Məclisinin daxilindən bu şüara qarşı etirazlar ucaldı. Bəhanələri bu idi ki, fəsadla mübarizə kapitalı ölkədən qaçırır; halbuki əksinədir. Mən o zaman da dedim ki, fəsada qarşı mübarizə fəsad törətmək və sui-istifadə etmək qəsdi olmayan sağlam investoru işə həvəsləndirir.

*İslam İnqilabının Böyük Rəhbərinin Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdəki çıxışından: 2005.*

**İqtisadi fəsadın kapital qoyuluşu ilə əlaqəsi**

Bu yaxınlarda uyğun məsələlər üzrə çalışan mötəbər bir beynəlxalq təşkilatın hesabatını oxudum. Bu təşkilat elan edib ki, bəzi ölkələrdə kapital qoyuluşunun əsas maneələrindən biri iqtisadi fəsaddan ibarətdir. Bunlar isə deyirdilər ki, fəsadla mübarizə sərmayə qoyuluşuna maneələrdəndir. Görün nə qədər fərqlidir. Fəsadla mübarizə ortaya qoyulur, aidiyyətli qurumlar yaxşı qarşılamaq və öz vəzifələri həddində iş görmək əvəzinə, əksinə edirlər. Bu onların istədiyi ikili hakimiyyətin kiçik tərəflərindən biridir.

*İslam İnqilabının Böyük Rəhbərinin Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdəki çıxışından: 2005.*

**Ruhanilik və hövzə tələbəsi görkəmini qorumaq**

Ruhanilik üçün şərt və lazım olan, bizim də diqqətlə və ciddi yanaşmalı olduğumuz başqa bir məsələ ruhaniliyin müqəddəsliyini qorumaq məsələsidir. Ruhani müqəddəs sayılır. Xalq mənə və sizə baxanda, paltarımıza, məqamımıza və peşəmizə görə bizim üçün xüsusi yer ayırır və bir müqəddəslik tanıyır. İmam Səccad (ə) Səhifeyi-Səccadiyyənin bir duasında Allah-Taaladan altı şey istəyir. Biri budur ki, daxilimi zahirimdən yaxşı et. Bizim bu sahədə problemimiz var. Gərək daxilimiz zahirimizdən yaxşı olsun. Bu müqəddəsliyi necə qorumalıyıq? Müqəddəsliyi malın sağlamlığı, əxlaqi sağlamlıq və hövzə tələbəsi görkəmini saxlamaqla qorumaq olar. Əlbəttə, demirik ki, çiynimizə cırıq əba ataq.

*Simnan vilayətinin ruhaniləri ilə görüşdə çıxışdan: 2006.*

**Hövzə tələbəsi, qənaət və iqtisadi sağlamlıq**

Hövzə görkəminin mənası bu deyil. Mənası odur ki, dünyagirlər kimi rəftar etməyək, həvəsimiz düşən hər şeyi istəməyək. Mən əvvəllər bir hədisdə görmüşdüm ki, ürəyi istəyəni geyinən, ürəyi istəyəni yeyən və ürəyi istəyənə minən şəxs Allah-Taala tərəfindən lənətlənmişdir; bu, pulluların və pulpərəstlərin vəziyyətidir. Bizim də ürəyimiz nəsə istəyir, pulumuz olmadığına görə almırıq, əlimizə pul düşən kimi isə tez gedib alırıq. Zadəganlığın yüz şərtindən birini əldə edən kimi qalan şərtlərini də tədricən əldə etməyə çalışırıq. Bu, hövzə tələbəsinə yaraşmır. Hövzə tələbəsi qənaətlə, iqtisadi sağlamlıqla və sadəliklə nisbi olaraq özünə orta hədd saxlamalıdır. Əxlaqi sağlamlıq çox mühümdür. Müqəddəslik bu zaman qoruna bilər.

*Simnan vilayətinin ruhaniləri ilə görüşdə çıxışdan: 2006.*

**Tağutun əsas işi - zadəgan yetişdirmək**

Uzun illər bu ölkədə hökumətin əsas işi zadəganlar, mal və pul baxımından örnəklər, yaxud qohumlardan ibarət "elita" yetişdirmək olmuşdur. Onlar məmləkəti öz malları, mülkləri bilirdilər. Xalqın böyük əksəriyyətini təşkil edən adi insanlara heç bir hüquq tanımırdılar. Həm Qacarlar dövründə belə idi, həm də Pəhləvilər dövründə. Doğrudan da xalqa heç bir hüquq tanımırdılar. Əgər nə isə deyirdilərsə, formal xarakterli və təbliğat üçün idi; onların xalqa qarşı baxışının nə olduğu tam bəlli idi. Biz belə bir vəziyyətin varisiyik. Odur ki, ölkədə istədiyin qədər problem və bir-birinin üstünə yığılmış ehtiyaclar var.

*İslam İnqilabının Böyük Rəhbərinin prezidentlə və quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2007.*

**Qərbin iqtisadi proqramları dövrü**

Bəzi iqtisadi nəzəriyyəçilər deyə bilərlər ki, belə olmaz, əgər iqtisadi inkişafa nail olmaq istəyirsinizsə, mütləq təbəqələr arasında fərqi qəbul etməlisiniz. Biz məhz burada yeniliyi, yaradıcılığı yada salarıq. Biz belə düşünməməliyik ki, Qərbin iqtisadi proqramları bəşər nailiyyətinin son həddidir. Xeyr! Bu da bir proqramdır, bunun da bir dövrü var. Bu dövr bitəcək, yeni düşüncə meydana çıxacaq. Axtarıb həmin yeni fikri tapın. Göstərici bu olmalıdır. Biz istəyirik ki, ölkəmiz sərvətli olsun. Biz istəyirik ki, ölkənin bütün istehsal sahələrinə kapital yatırılsın.

*İnqilabın Böyük Rəhbərinin İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçiləri və Məşhəd əhalisinin böyük toplantısında çıxışından: 2008.*

**İslam kimi zadəgan sayır?**

Hədisdə göstərilir ki, "ümmətimin zadəganları Quranı daşıyanlar və gecənin yoldaşlarıdır". Maddi quruluşlarda zadəganlığın bir mənası var, İslam quruluşunda başqa bir mənası. Gecənin yoldaşı olan, yəni gecə vaxtı Allah üçün yuxudan oyanan şəxslər, yaxud gecə vaxtı xalqdan ötrü çətin işlər görənlər, yaxud Quranı daşıyanlar, Quranla ünsiyyətdə olanlar, Quranın nuru və hidayəti ilə hərəkət edənlər zadəganlardır. Pulu, sərvəti, ictimai mövqeyi olanlar isə İslam məntiqində və İslam dəyərlər sistemində zadəgan sayılmırlar.

*Prezident və nazirlərlə görüşdə çıxışdan: 2008.*

**Kapitalist quruluşunun ziyanları**

Fərz edin bir cəmiyyətdə qazancın birinciliyi təfəkkürü hakimdir. Yəni dünyanın bütün məsələləri pulla, hər hansı bir şeyin maddi dəyəri və qazancı ilə ölçülür. Bu gün dünyanın böyük bir hissəsində vəziyyət belədir; hər şey pulla ölçülür. Belə cəmiyyətdə bəzi işlərin pula vasitə olduğu üçün dəyər sayılması mümkündür, lakin pulun və qazancın mühakimə meyarı olmadığı bir cəmiyyətdə həmin iş antidəyər sayıla bilər.

*Kürdüstan vilayətinin universitet müəllimləri və tələbələri ilə görüşdə çıxışdan: 2009.*

## Üçüncü fəsil: İqtisadi fəsadlara və dəbdəbəyə qarşı mübarizənin yolları

### Müqavimət qələbə amili kimi

Rəvayətlərə əsasən Peyğəmbər (s) buyurmuşdur: "Nə qədər ki, siz öz yerlərinizdə möhkəm dayanmısınız, biz həmişə qalib gələcəyik". Lakin problem yaransa, dünya malına rəğbət, vəzifəni unutmaq və dünya tör-töküntülərinə sahib olmaqda bəhsə girişmək vəzifə hissinə, daxili və dini vicdana qələbə çalsa, əksinə olar. Quran buyurur ki, əvvəl səhlənkarlıq etdiniz, öz aranızda çəkişməyə başladınız, postlarınızı tərk etdiniz və sizə qalıb keşik çəkməyinizi tapşırdığı yeri buraxdınız. Nəticədə vəziyyət əksinə çevrildi: "Bu əzab ona görədir ki, bir tayfa özünə bəxş edilən neməti (naşükürlük üzündən küfrə) dəyişməyincə, Allah da ona əta etdiyi neməti dəyişən (pisliyə çevirən) deyildir". Bu bir qanundur; cazibə qanunu kimi, digər təbii və tarixi qanunlar kimi.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Allaha təvəssül**

Qardaşlar! Quruluşu təqva təməli üzərində qorumaq lazımdır. Təqvanın yolu da Allah zikridir. Cənab nazirlər, cənab deputatlar, ölkənin müxtəlif idarəçiləri, məhkəmə məmurları özlərini duaya, namaza, zikrə, təvəssülə, Allaha qayıdışa ehtiyacsız bilməsinlər; deməsinlər ki, biz xalqa xidmətlə məşğuluq, duanı işi az olanlar etsinlər. Xeyr! Əsas iş budur. Əgər bu olmasa, xidmət sahəsində də dayaqsız olarıq. Bu vəsvəsələrin qarşısında qaldıqda zəif, islah olunmamış və dünyaya həris olan məni nə saxlayacaq?! "De: "Əgər duanız olmasa, Rəbbim sizə diqqət yetirməz".

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Məmurların quruluşa ürək yandıranlara xüsusi diqqəti**

Cəbhələrdə vuruşanlar kimlər idilər?! Fərqlərə baxın. Səkkiz il müharibə oldu, amma pulluların, varlıların, bu dərdsiz və duyğusuzların çoxu onu hiss etmədi; həmin yemək, həmin rahatlıq, həmin dinclik. Bir neçə gün şəhərləri hücuma məruz qalanda da maşınlarına minib başqa bir yerə getdilər, rahatlıqlarından qalmadılar. Onlar bu məmləkətin necə müsibətlər çəkdiyini bilmədilər. Onlar dövlət qurumlarının canfəşanlıqla xidmət göstərməsinə layiq adamlar deyillər. İlk növbədə bu 10-12 ildə müharibəni, bombardmanı, iqtisadi blokadanı, su azlığını, elektrik enerjisinin azlığını, bahalığı və digər problemləri bütün varlığı ilə hiss edənlərə diqqət yetirilməlidir.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Ümumi xalqa diqqət ayırmağın zəruriliyi**

Xalq bunlardır. Əmirəlmöminin (ə) Malik Əjdərə yazdığı tarixi fərmanında buyurdu ki, sadə insanlara diqqət yetir, qeyrilərini burax. Sadə xalq – müharibədə səninlə birgə vuruşanlar, problemlərdə sənin yanında olanlar, çətinlikləri səninlə bölənlər, qəmini ürəyindən silənlər, özlərini sənin bəlana qalxan edənlər və sadiq olanlardır, heç nə ilə qane olmayan, yalnız rahatlıqlarını düşünən üzlü, qarınqulu və tamahkar adamlar yox. Onlara bir xeyir çatdıqda səni istəyirlər, bir qədər azalan kimi isə arxa çevirirlər.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**"İnqilab yolunda halal istəklərdən də keçmək lazımdır!"**

Bu yolda çox şeylərdən keçmək, təkcə haram istəklərə yox, halal istəklərə də göz yummaq lazımdır. Demirəm Peyğəmbər (s) kimi, onun şagirdi Əmirəlmöminin (ə) kimi olaq. İnsan onların barəsində oxuyanda dəhşətə gəlir. Zahidliyi digərlərinə nümunə olan, müsəlman və qeyri-müsəlmanların tanıdığı Əmirəlmöminin (ə) Peyğəmbər (s) barədə buyurur ki, o, dünyanı təhqir etdi - yəni dünyanın ləzzətlərini, fayda və imkanlarını kiçik bildi, aşağıladı və dəyərsiz saydı.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**"Öz şəxsi həyatınızla az məşğul olun!"**

Qubada Peyğəmbərə (s) su gətirdilər, ona bala bənzər bir şey qatdılar. Peyğəmbər (s) buyurdu ki, mən bunu haram etmirəm, lakin yemirəm. Bunlar iki fərqli şeydir; ya su, ya bal. Bunu bizdən istəməyiblər. Əgər məndən və sizdən istəsələr, evimiz yıxılar. Məgər biz elə yaşaya bilərik?! Bəllidir ki, o müqəddəs varlıq başqa bir şeydir.

Əmirəlmöminin (ə) həmin cümlədə buyurur: "Allah-Taala Peyğəmbərə (s) anlatdı ki, əgər Mən dünyanı öz istəyinlə səndən alıramsa, bu, daha şirin olanı vermək üçündür". Bu şirinləri Allah övliyaları görürlər. Mən və siz hiss etmirik, lakin o yolla getməliyik, o yolda addımlamalıyıq. Az xərcləyək, az yersiz bəxşişlər edək, öz şəxsi həyatımızla az məşğul olaq.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Məmurların sadə yaşayışı**

Əgər dövlət büdcəsindən müəyyən bir məbləğ baş direktorun, nazir müavininin, nazirin, filan məhkəmə məmurunun, hər hansı sahədə çalışan bir məmurun otağının dekorasiyasının dəyişməsinə sərf olunsa, bu, cinayət və səhvdir. Əgər dövlətin xərclərindən biri filan qədər yeni maşın gətirib idarələrə paylamaq olsa, bunu dövlət xərclərindən hesablamağa və onun hesabına xalqın subsidiyasını azaltmağa haqqımız çatmır. Xeyr! Bu düzgün deyil. Bu işlər üçün hədd tanımalısınız. İdarələr göstəriş verməli və belə dekorasiya dəyişikliyi, ev dəyişikliyi və əlavə xərclər barədə bir hədd müəyyənləşdirməlidirlər. Mən bəzi radikallar kimi demirəm ki, məsciddə oturub nazirlik edək. Xeyr! Məsciddə olmaz, nazirlik üçün bir bina, bir qədər otaq, məmur və xidmət göstərmək istəyən şəxsin yaşayışı üçün bəzi imkanlar lazımdır. Lakin bunun həddi-hüdudu olmalıdır.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Məmurların zadəganlığına qarşı mübarizə**

Hərdən bəzi yerlərdən məyusedici xəbərlər gəlir, insan doğrudan da xəcalət çəkir. Soruşuruq ki, nə üçün lüks, yeni və yüksək modelli maşın? Deyirlər ki, təhlükəsizlik problemi var. Hansı təhlükəsizlik problemi? Ölkənin Təhlükəsizlik Şurasında, yaxud digər yerlərdə çalışan məmurlar oturub müəyyənləşdirsinlər və bir nəticə göstərsinlər. Mən də müdaxilə etməliyəmsə, deyin. Bu nə vəziyyətdir?! Hər bir nazirliyin və idarənin qarşısında oranın məmurlarına məxsus müxtəlif rəngli avtomobillər görünür. Kim belə söyləmişdir?!

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Rəhbərin dəbdəbəyə qarşı mübarizəsi**

Məlumat çatıb ki, idarələrin birində etiqadi-siyasi ruhaninin özünün avtomobili var, lakin dövlət avtomobilindən istifadə edir. Mən yazdım ki, bu işi görməyə haqqı çatmır. Cavab gəldi ki, bu normaldır və hamı belə edir. Qəribədir! Bu nə sözdür?!

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Şəxsi işlərdə dövlət imkanlarından istifadə etməmək**

Mən indi elan edirəm, qabaqca da yazmışam və demişəm ki, şəxsi imkanlar olduğu halda dövlət imkanlarından istifadə etmək olmaz. Əgər avtomobiliniz varsa, onu sürüb nazirliyə və iş yerinizə gedin. Dövlət avtomobili nədir?! And olsun Allaha ki, əgər xalq tərəfindən qınanmasaydım və davamlı olaraq təhlükəsizlik məsələləri barədə xəbərdarlıq etməsəydilər, mən peykan markalı maşınla gəzərdim.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Dünyapərəstlikdən uzaq durmaq**

Zəruri miqdarla kifayətlənin və hədd saxlayın. Bunlar bizi xalqdan uzaqlaşdırır, ruhaniləri xalqın gözündən salır. Ruhanilər təqva, iman və dünyaya etinasızlıqla gözlərdə ucalmışlar. Təqvasız və dünyanı kənara atmadan ucalmaq olmaz. Xalq kimdənsə utanıb-çəkinmir; Allah da heç kimdən çəkinmir.

*İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1991.*

**Aristokratları müdafiə etməkdə İranın Qərblə mübarizəsi**

Avropa tarixi uzun dönəmlərdə Qərbin bir çox, yaxud bütün ölkələrinin məhkəmə sisteminin əsas vəzifə kimi aristokrat təbəqəsini və zadəganları müdafiə etdiyini göstərən faktlarla doludur. Onlar aristokratların böyük cinayətlərini görməzliyə vurur, xalqın kiçik cinayətlərini isə ən kəskin cəzalarla qarşılayırdılar. Bizim məhkəmə sistemimizin iş prinsipi isə bunun əksinə olmalıdır. Güclünün gücü var, daha çox zəifin vəziyyəti nəzərə alınmalıdır. Allah üçün canını fəda etməyə hazır olduğunu göstərmiş və indi bir məhkəmə işində çətinliyə düşmüş, öz haqqını düzgün şəkildə nəinki isbat, heç bəyan da edə bilməyən şəxsə kömək etmək, ona daha yaxşı baxmaq, onunla maraqlanmaq lazımdır; əgər haqlıdırsa, bəlli olsun, haqlı deyilsə, heç.

*Böyük Rəhbərin hakimlər və məhkəmə işçiləri ilə görüşdə çıxışından: 1993.*

**Seyyidüşşühədа İmam Hüseyn dünyapərəstliyə qarşı**

Belə bir vəziyyətdə məgər kiminsə ürəyi, cürəti, yaxud hövsələsi vardımı Yezid ibn Müaviyə rejiminə qarşı çıxsın?! Məgər belə bir hal baş verərdi?! Ozamankı zülm və fəsad rejiminə qarşı mübarizə barədə kim düşünürdü?! Belə bir şəraitdə möhtəşəm Hüseyn (ə) qiyamı baş verdi. O həm düşmənlə mübarizə apardı, həm də adi müsəlmanlar arasında təhlükəyə sarı gedən rahatçılıq və fəsadı qəbuletmə ruhiyyəsi ilə. Bu mühümdür. Yəni Hüseyn ibn Əli (ə) xalqın vicdanını oyatdı.

*Böyük Rəhbərin İmam Hüseynin (ə) doğum günü münasibəti ilə Keşikçilər Korpusu və polis qüvvələri ilə görüşdəki çıxışından: 1993.*

**Dəbdəbəyə qarşı mübarizədə xalqın dəstəyinə ehtiyac**

Bunu bilin, eyş-işrətə meyl elə bir şey deyil ki, qanun, məhkəmə, istintaq və bu kimi işlərlə ondan qurtulmaq mümkün olsun. Bu çox çətin məsələdir, elə mövzulardandır ki, bütün cəmiyyətin, xalqın istəyi, daha aydın desək, ümumi mədəniyyəti onu dəf etməli və ona çarə qılmalıdır. Dəbdəbəyə meyl göstərən və ürəkləri aristokrat həyat tərzi üçün sino gedənlər, yəni aristokratlara məxsus və xalqın orta səviyyəsinə yad tərzdə yemək, geyinmək, yaşamaq və hərəkət etmək istəyən şəxslər bu kimi işlərin xalq arasında yaxşı olmasına və dəyər sayılmasına dair ənənə və zehniyyət yaradırlar. Necə ki, inqilabın qələbəsindən öncə belə idi.

*İslam İnqilabının Böyük Rəhbərinin Şərif Sənaye Universitetində tələbələrin suallarına cavablarından: 1999.*

**Məmurların zadəganlıq və dəbdəbəyə qarşı mübarizəsinin zəruriliyi**

Müsəlman məmurlar öz rəftar və əməllərində israfçılığa yol verməməlidirlər. Onlar israfçılığı və dəbdəbəyə meyli mədəniyyətə çevirəcək həddə yaşamamalıdırlar. Bu da ikinci məsələdir. Bunun əhəmiyyəti birincidən artıq olmasa da, az deyil. İslam hökumətinin yüksək rütbəli bir məmuru vasitəsi ilə komfortlu yaşayış və iş yeri, ailə həyatı, övladlarının toyu, mehrlər, cehizlər və bu qəbildən olan məsələlər qeyri-islam formasında, yəni israfçılıqla yanaşı olsa, bu, mədəniyyətə çevriləcək; yəni digərləri baxıb öyrənəcəklər, mehrlər yüksələcək, nikahlar çətinləşəcək, həyat ağırlaşacaq və bu rəftar qısa, yaxud uzun müddət ərzində tədricən öz təsirini buraxacaq.

*İslam İnqilabının Böyük Rəhbərinin Tehranın cümə namazı xütbələrindən: 2000.*

**Məmurların günah və qanunsuz işlərdən çəkinməsi**

Başqa bir yerdə Osman ibn Hüneyfə yazdığı məşhur məktubunda buyurur ki, hər bir şəxsin bir imamı var; onun elmindən istifadə etməli, nurundan bəhrələnməli, ona iqtida etməli və yolu ilə getməlidir. Sonra Əmirəlmöminin (ə) ozamankı insanların ən kasıbına uyğun yeməyini və geyimini yada salıb buyurur ki, mən sizin imamınızam və belə yaşayıram. Osman ibn Hüneyfə buyurdu ki, siz mənim kimi yaşaya bilməzsiniz - yəni sizdən bu gözlənti yoxdur - lakin günahdan çəkinin və buna çatmağa çalışın. Bu sözləri Əmirəlmöminin (ə) bu gün bizə də deyir. Səhv, günah və qanunsuz olandan çəkinin və özünüzü bu həddə yaxınlaşdırmağa çalışın.

*İslam İnqilabının Böyük Rəhbərinin ramazan ayının 21-də cümə namazı xütbələrindən: 2001.*

**Əmirəlmömininin (ə) artıqtamahlar qarşısındakı məntiqi**

Bir nəfər Əmirəlmömininin (ə) yanına gəlib ondan pul istədi. Həzrət buyurdu ki, beytülmal mənim və sənin deyil, xalqa məxsusdur. Sən də İslam fəthlərində iştirak etmiş olsan, payını alarsan. Xalqın öz zəhməti ilə əldə etdiyi özünə məxsusdur. Bu, Əmirəlmömininin (ə) uyğun istəklər qarşısında məntiqidir.

*İslam İnqilabının Böyük Rəhbərinin ramazan ayının 21-də cümə namazı xütbələrindən: 2001.*

**Xalqın məmurlardan tələbi: zülmə qarşı mübarizə**

İslam Respublikası quruluşunda xalq məmurlardan zülmə, zalıma və fəsad törədənlərə qarşı mübarizə aparmalarını istəsin. Quruluşun yüksək rütbəli bir hakimini və məmurunu qəbul etmək üçün xalqın meyarı bu olmalıdır: zülmə qarşı mübarizə, zalımla barışmamaq, hegemon qarşısında təslim olmamaq, insanı və insaniyyəti uca tutmaq, bütün formalarda və bütün meydanlarda haqqın bərpasına çalışmaq. Odur ki, mən bunları ümumi xalq qarşısında deyirəm; necə ki, Əmirəlmöminin (ə) də xalqa müraciətlə həmin sözləri demişdi. O həzrətin məktubları bəzi şəxslərə ünvanlansa da, hamı ondan xəbərdar olurdu. Xütbələr də xalqın qarşısında bəyan olunurdu.

*İslam İnqilabının Böyük Rəhbərinin ramazan ayının 21-də cümə namazı xütbələrindən: 2001.*

**Ali Məhkəmənin böyük vəzifəsi**

Harada bu haldan yayınma baş versə, Ali Məhkəmə qüdrətli bir qol kimi qanunu pozanın yaxasından tutmalı və buraxmamalıdır. Bu, Ali Məhkəmənin böyük vəzifəsidir. Süni ajiotajdan, hücumdan, ittihamdan və qınaqdan da qorxmaq lazım deyil. Ali Məhkəmə qeyzin, güc nümayişinin, hakimiyyət istəyinin, pulun, pullunun və digər bu kimi məsələlərin təsiri altına düşməməli, bu məsələlər üzərində dayanmalıdır.

*İslam İnqilabının Böyük Rəhbərinin 7 Tir (28 iyun) şəhidlərinin ailələri və Ali Məhkəmənin məsul şəxsləri ilə görüşdə çıxışından: 2004.*

**İslam Respublikası - aristokratlara qarşı hökumət**

İslam Respublikası heç bir xaricinin müdaxilə etmədiyi, avtoritorizmin və istibdadın hakim olmadığı, xüsusi aristokratlar təbəqəsinin müdaxilə etmədiyi, feodalların xalqın işlərinə qarışmadığı bir hökumətdir. İslam Respublikası quruluşunda tağut sarayı, əcnəbilərin, feodalın və feodalizmin müdaxiləsi yoxdur, bu xalqın və ləyaqətli insanların hökuməti iş başındadır. İslam Respublikasında yüksək dövlət postlarına seçilmək ləyaqətdən asılıdır; kim layiqdirsə, seçilir.

*İslam İnqilabının Böyük Rəhbərinin Ciroft əhalisinin böyük toplantısında çıxışından: 2005.*

**Xalqın sayıqlığı və quruluşun qorunması**

Biz elə bir quruluş və ölkə istəyirik ki, özü inkişaf etmiş, xalqı alim, ayıq və fəal olsun, qəflət içində və yuxulu olmasın, ölkə ədalətli, fəsaddan uzaq olsun, onda aristokrat təbəqəsinin - istər ənənəvi aristokratların, istərsə də adı aristokrat olmayıb, əslində aristokrat olan və müxtəlif iqtisadi dəbdəbələrdən istifadə edən yeni təbəqənin hakimiyyəti olmasın, siyasi qüdrəti olsun və bunların hamısı din təlimlərindən və əziz İslamdan ilham alsın. İslam bunları bizə öyrədəcək gücdədir.

*İslam İnqilabının Böyük Rəhbərinin Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdəki çıxışından: 2005.*

**"Fəsada qarşı mübarizənin birinci şərti özümüzü islah etməkdir!"**

İqtisadi fəsada qarşı dövlət idarələri daxilində mübarizə aparmaq məhkəmə qurumlarında mübarizə aparmaqdan əhəmiyyətlidir. Məhkəmənin işi fəsad törədəni cəzalandırmaqdırsa, icraçı təşkilatın üzərinə düşən fəsadın qarşısını almaqdır. Və bu daha əhəmiyyətlidir, qabaqlayıcı tədbirdir. İcra işinin müxtəlif dalanlarında – istər proqram mərhələsində, istər icra mərhələsində fəsad mikrobları yaranır, inkişaf edir və çoxalır. Bunların qarşısını almaq lazımdır. Düzdür, fəsadla mübarizənin düzgünlüyə ehtiyacı var. Əvvəl özümüzü islah etməli, fəsad adamı olmamalıyıq ki, fəsadla həqiqətən mübarizə apara bilək. Özümüzdən ehtiyatlı olmalıyıq.

*İslam İnqilabının Böyük Rəhbərinin prezidentlə və quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2007.*

**Sərvətlilərin dəstəyinin lazım olması**

Bu gün ölkəmizdə sərvətlilər çoxdur. Onlar sərvətlərini faydalı və şərəfli iş olan kapital qoyuluşuna yönəldə bilərlər. Bu həm özlərinə, həm xalqa qazanc gətirər, həm də Allahın razılığına səbəb olar. Sərvətlilərin ölkədə istehsalata və daxili məhsulun artmasına səbəb olan işlərə kapital yatırması yüksək maddi qazancdan əlavə həm də ibadət sayılır və savab işdir. Bu yol açıqdır. Onlar sərmayə yatırıb sərvət istehsal edə bilərlər. Ölkə məmurları də diqqətli olsunlar ki, bu imkanlardan bütün təbəqələr faydalansınlar, zəif təbəqələr də istifadə edib zəiflikdən çıxsınlar və hamının vəziyyəti yaxşılaşsın.

*İnqilabın Böyük Rəhbərinin İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçiləri və Məşhəd əhalisinin böyük toplantısında çıxışından: 2008.*

**Fəsada qarşı mübarizənin çətinliyi**

Fəsada qarşı mübarizə çox çətin işdir. Mən bir dəfə dedim ki, yeddibaşlı fəsad əjdahasını asanlıqla məhv etmək olmaz. Bu çox çətin işdir. İndi demək istəmirəm ki, məhv edilib. Xeyr! İndi də məhv olmayıb, lakin onunla mübarizə cəsarəti var. Bəli, komandanın özü fəsada aludə olmasa, təbii ki, cəsarəti daha çox olar. Qabaqkı komandaların bir çoxu da həqiqətən təmiz idilər, bulaşmamışdılar. Hər halda, fəsada qarşı mübarizə cəsarəti bir üstünlükdür və sizdə var.

*İslam İnqilabının Böyük Rəhbərinin prezident və Dövlət Şurası ilə görüşdə çıxışından: 2008.*

**Dəbdəbəyə qarşı mübarizədə əməli işlər görmək**

Biz əgər həqiqətən böyük bəla olan dəbdəbənin, zadəganlığın və israfçılığın kökünü kəsmək istəyiriksə, bu, sözlə və danışmaqla həll olan deyil; bir tərəfdən danışaq, bir tərəfdən də xalq baxıb əməlimizin başqa cür olduğunu görsün! Biz əməli işlər görməliyik. Bizim əməlimiz sözlərimizi təsdiqləməli, ona sübut və şahid olmalıdır ki, təsir göstərsin. Xoşbəxtlikdən bu var. Siz yoxsul təbəqələrlə fərqinizi azaltmısnız. Bunu belə saxlayın və mümkün olan həddə azaldın.

*İslam İnqilabının Böyük Rəhbərinin prezident və Dövlət Şurası ilə görüşdə çıxışından: 2008.*

**Ayrıseçkiliklə mübarizədə ilahi vəzifəmiz**

Bizim ilahi vəzifəmiz və İslam ədalətinin tələbi budur ki, cəmiyyətin hər hansı bir təbəqədən olan fərdləri bir möminin məqamına lazım və münasib imkanlara malik olsunlar. Dünyanın fəsad dolu cəmiyyətlərində mövcud olan, bizim inqilabdan öncəki cəmiyyətimizdə ən pis şəkildə mövcud olmuş və qalıqları hələ də tamamilə məhv olmayan ayrıseçkilik və haqsızlıqlar yox olmalıdır.

*Ölkə fəhlələrinin minlərlə nümayəndəsinin beyət mərasimində çıxışından: 1989.*

**Sərmayə qoyuluşunda daha artıq iş və iradə**

Sərmayə qoyuluşunda və iş yerləri açmaqda daha artıq iradə göstərilməli və daha artıq iş görülməlidir. Sərvəti, pulu və böyük gəlirləri olan insanların bir çoxu bu gəlirləri necə sərf etməyi bilmirlər. İstehlak modelinin islahı burada özünü göstərir. Pulu istehsal işinə ayırmaq yerinə dəbdəbəyə sərf edirlər. Əbəs, faydasız, bahalı və bəzən fəsad dolu xarici səfərlər, ev əşyalarını, məişət avadanlıqlarını dəyişmək üçün bəhanə - bunlar sərvətə qarşı israfçı hərəkətlərdir. Pulu və gəliri sərmayə qoyuluşuna yönəltmək olar. Bu gün bu işə şərait var. Ölkədə mövcud olan bursları fəallaşdırmaqla sərmayə qoymaq olar. Hamı öz sərvəti ilə sərmayə qoya bilər.

*İnqilabın Böyük Rəhbərinin İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçiləri və Məşhəd əhalisinin böyük toplantısında çıxışından: 2008.*

## Əlavə

## İcra, məhkəmə və qanunverici hakimiyyətlərin başçılarına səkkizmaddəlik fərman: 30 aprel 2001

İcra, məhkəmə və qanunverici hakimiyyətlərin möhtərəm başçıları!

İcra və məhkəmə hakimiyyətlərinin İqtisadi Fəsadlarla Mübarizə Komitəsini yaratması və fəsadla mübarizə layihəsini hazırlaması məmurların bu əsaslı və həyati işdə ciddi iradəsini göstərir. İmam Əli (ə) quruluşunu örnək seçməsi ilə fəxr edən bir iqtidar komandası hər bir halda özünün ideal Əli (ə) və İslam quruluşu ilə fərqlərini azaltmağı böyük vəzifə bilməlidir. Bu, ixlaslı cihad və möhkəm iradə tələb edir. Xalqa xidmətdən və İslamın ədalət bayrağını ucaltmaqdan başqa bir məqsədi və fəlsəfəsi olmayan İslam Respublikası bu işə biganə yanaşmamalı, İmam Əlinin (ə) qətiyyətli və insaflı rəftarını diqqətdə saxlamalı, ilahi yardıma, ədalət və insafın qədrini bilən xalqın himayəsinə arxalanmalıdır.

Bu ilin "Əli (ə) rəftarı" ili adlanması siz əziz qardaşların Allahın lütfü ilə ötən illərdə həmişə rəhbər tutulmuş işə - quruluşun sağlamlığını qorumaq işinə yeni nəfəsli və proqramlı fəaliyyət bəxş etməniz, həmkarlıq və birliklə bu nəcabətli və mömin xalqın gözü qarşısındakı üfüqləri daha aydın və daha şəffaf etməniz üçün münasib bir zamandır.

Bu gün bizim ölkəmizin sağlam iqtisadi fəaliyyətlərə, gənclər üçün iş yerlərinin açılmasına və etimadlı sərmayə qoyuluşuna ciddi ehtiyacı var. İnvestor, sənətkar, fəal əkinçi qüvvələri, elmi yaradıcı, iş axtaran və digər təbəqələr hökumətin fəaliyyətlərinin sağlam, maliyyə və iqtisadi işlərlə məşğul olan məmurların etimadlı və doğruçu olduğuna əmin olmalı, təhlükəsizlik hiss etməlidirlər. Əgər fəsad törədənlər və sui-istifadəçilər hökumət imkanlarından məhrum edilməsələr, iddialı və inhisarçılar, artıqtamahlar qovulmasalar, sərmayə qoyan, istehsal edən və iş axtaran təhlükə hiss edər və ümidini itirər. Hətta onların bəzisi qanunsuz yollardan istifadə etməyə həvəslənər.

Maliyyə və iqtisadi fəsadın kökünü kəsmək, bu sahədə ortaya qətiyyətli və həlledici iş qoymaq üçün hər üç hakimiyyət qüvvələri, xüsusən də icraçı və məhkəmə hakimiyyətləri vasitəsi ilə hərtərəfli işlər görülməlidir. İcraçı orqan proqramlı, dəqiq və güzəştsiz nəzarətlə idarələrdə maliyyə fəsadlarının yaranmasının və inkişaf etməsinin qarşısını almalıdır. Ali Məhkəmə qətiyyətli və namuslu ekspert və hakimlərdən istifadə edərək cinayətkarı, xəyanətkarı və çirkin qüvvələri ölkənin inkişafı önündən götürməlidir. Bəllidir ki, qanuni işləri asanlaşdıran qanunlar qəbul etməkdə, eləcə də nəzarət vəzifəsini ifa etməkdə qanunverici orqanın rolu da çox mühüm və təsirlidir.

Sizə və ölkədə maliyyə fəsadına qarşı mübarizədə rol oynaya bilən digər məmurlara bəzi məsələləri xatırlatmağı lazım bilirəm:

1) İqtisadi və maliyyə fəsadına qarşı ciddi mübarizə başlayan kimi, şübhəsiz, ona qarşı pıçıltılar, tədricən isə fəryad və nərələr ucalacaq. Bu müxalifətlər əsasən bu böyük addımdan zərər görənlər tərəfindən olacaq. Təbii ki, xalqın və ölkənin səadətini istəməyən xəbis qüvvələr, yaxud onların təlqinlərini qəbul edən sadəlövhlər də onlara səs verəcəklər. Bu müxalifətlər sizin möhkəm iradənizdə tərəddüd yaratmamalıdır. Hər üç hakiməyyətdə xeyirxah məmurlara öyrədin ki, fəsadla mübarizədə güzəştə getmək onu törədənlərlə bir növ əlbir olmaq deməkdir. Dövlət və

məhkəmə idarələrinə ümumi inamı qorumaq üçün bu idarələr cinayətkarlar və qanunu pozanlarla mübarizədə öz qətiyyətini göstərməlidir.

2) Kimlərsə səhvən düşünə bilər ki, fəsad törədənlərlə və milli sərvətlərdən sui-istifadə edənlərlə mübarizə iqtisadi sabitliyin pozulmasına, kapitalın ölkədən qaçmasına səbəb ola bilər. Bu şəxslərə başa salın ki, əksinə, bu mübarizə sağlam iqtisadi fəaliyyətlərlə məşğul olmaq istəyənlərin etimadına və iqtisadi şəraitin təhlükəsizliyinə bais olacaq. Bu ölkənin istehsalçılarının özü maliyyə fəsadının və qeyri-sağlam iqtisadiyyatın ilk qurbanlarıdır.

3) Fəsadla mübarizə işini istər hökumətdə, istər məhkəmədə etimadlı, sağlam və sədaqətli məmurlara tapşırın. Natəmizliklə mübarizə aparmaq istəyənin özü təmiz olmalıdır. Düzgünlük yolunda çalışmaq istəyənlərin özləri düzgün olmalıdırlar.

4) Ədalətin zərbəsi qətiyyətli, eyni zamanda dəqiq və zərif olmalıdır. Günahsızları ittiham etmək, xəyanətlə səhv arasında fərq tanımamaq, yaxud kiçik və böyük günahlara eyni yanaşmaq olmaz. Şübhəsiz, ölkənin hər üç hakimiyyətində işçilərin əksəriyyətini təşkil edən namuslu, səlahiyyətli və xidmətkar müdirlər ittihama, hörmətsizliyə məruz qalmamalı, yaxud təhlükə hiss etməməlidirlər. Yaxşı olar ki, fəsadla və fəsadı törədənlərlə mübarizənin yanında namuslu və xidmət göstərən şəxslərin həvəsləndirilməsi də mühüm bir vəzifə sayılsın.

5) Hər üç orqanda fəaliyyət göstərən müxtəlif nəzarət sahələri, o cümlədən ölkənin Yoxlama Komitəsi, Mühasibat Divanı və Təhlükəsizlik (Ettelaat) nazirliyi səmimi həmkarlıqla ölkənin maliyyə və iqtisadi dövriyyəsində təhdidə məruz qalan sahələri düzgün tanımalı, məhkəmələrə, eləcə də təhdidləri aradan qaldıran məmurlara bu işdə kömək etməlidirlər.

6) Təhlükəsizlik nazirliyi öz qanuni vəzifələri çərçivəsində dövlətin nəhəng iqtisadi fəaliyyətlərində həssas cəhətləri, misal üçün, xarici alış-

verişləri və müqavilələri, iri investisiyaları, milli layihələri, eləcə də ölkənin iqtisadiyyat və pul sahəsindəki mühüm qərar mərkəzlərini nəzarətə götürməli, iqtisadi sağlamlığın həyata keçməsində hökumətə və məhkəmə qurumlarına kömək və müntəzəm surətdə prezidentə məruzə etməlidir.

7) Fəsadla mübarizə işində heç bir ayrıseçkilik görünməməli, heç kəs, heç bir orqan və qurum istisna edilməməlidir. Heç kəs, yaxud qurum mənə, yaxud ölkənin digər məmurlarına mənsubluğuna görə özünü sorğudan azad saya bilməz. Harada və hansı postda olursa-olsun, fəsada qarşı eyni mübarizə aparılmalıdır.

8) Bu mühüm və həyati məsələdə şüar və təbliğat formasında şərti rəftar edilməməli, reklam yerinə işin təsir və faydaları müşahidə olunmalıdır. Bu mühüm işlə məşğul olanlara təkidlə tapşırın ki, fəsadların kökünün yerinə zəiflərə və kiçik nöqsanlara sarı getməsinlər, əsas yerləri nəzərdən qaçırmasınlar. İctimaiyyətə məlumat vermək lazımlı işdir, lakin bunda biçilməmiş və təbliğat xarakterli fikirlərdən uzaq durmaq, ictimai rəyin sabitliyini qorumaq lazımdır.

Allah-Taaladan özümə, sizə və bu işin bütün məmurlarına ixlas, ciddilik və uğur diləyirəm. Ümidvaram bu addım həzrət Bəqiyyətullah İmam Mehdinin (ə) razılığına səbəb, ümumi rifah və asayişə doğru böyük bir addım olacaq.

Seyid Əli Xamenei